International Journal of Filologia (IJOF)
ISSN: 2667-7318, Yıl: 5, Sayı: 8, Yayımlanma Tarihi: 30.12.2022

# NAZAN BƏKİROĞLUNUN "NAR AĞACI" ROMANININ JANR XÜSUSİYYƏTİ, PROBLEMATİKASI VƏ BƏDİİ OBRAZLARI

## Nazan Bekiroğlu'nun "Nar ağacı" Romanının Tür Özellikleri, Sorunları ve Sanatsal Görselleri

## Problems, Genre Features and Artistic Images of Nazan Bekiroglu's Novel "Pomegranate Tree"

**Prof. Dr. Salide ŞERİFOVA**
*Azerbaycan Ulusal Bilimler Akademisi, Nizami Genjavi Edebiyat Enstitüsü, Bakü, Azerbaycan, salidasharifova@yahoo.com*

***Araştırma Makalesi/Research Article***

**Geliş/Received:**
19.06.2022

**Kabul/Accepted:**
28.11.2022

**Sayfa/ Page:**
66-78

**Xülasə**

Nazan Bəkiroğlunun "Nar ağacı" romanı zaman kəsiyində tarixi yaddaşın unudulmamasını əks etdirir. XXI əsrdə xalqın tarixi gercəkliklərini ədəbiyyatda inikas etdirən "Nar ağacı" romanı türkçülük ideologiyasını bədii dillə dəyərləndirir. Müəllif türk xalqının XX əsrin əvvəllərində üzləşdiyi ziddiyyətli, gərgin tarixi gerçəkliklərini əks etdirir. Müəllifin romanda tarixi gerçəklikləri zaman axarında cavablandırması müasirlik prizmasından əhəmiyyət kəsb edir.
Nazan Bəkiroğlunun "Nar ağacı" romanı tarixi hadisələrin sadəcə bədii təqdimi deyildir. Əsərdə dramatizm dolu epizodlarla millətin milli mücadilə yolunda keçdiyi tarixi məqamlara işıq salınır. Uzaq keçmişdən bəhs edən müəllifin qəhrəmanı yaşadığımız dövrün müasiridir. Ziyalı, ali məktəb müəllimi olan qəhrəman müəllifin prototipi kimi diqqəti cəlb edir. Əsərin baş qəhrəmanı xalqın milli tarixi səhifələrini müasirlik işığında təqdim etməyə cəhd edir.
Nazan Bəkiroğlu siyasi məqamlara toxunarkən, çox vaxt fikirlərini mətnaltı şəkildə təqdim edir. Müəllif mətnaltı fikirlərlə siyasi olaylara oxucunun diqqətini yönəldir. Romanda türk xalqının tarixi arealda torpaqlarının parçalanması kimi tarixi yaddaşa həkk olunmuş hadisələrə aydınlıq gətirir. Məsələn, romanda Türkmənçay müqaviləsinə toxunulur. Müəllif poliloqlala bu tarixi hadisəyə münasibətini bildirir. İnsanların mübahisə doğuran fikirlər bəzi qaranlıq məqamların açıqlanmasına yardım edir.
**Açar sözlər:** Roman, tarix, yaddaş, Türk, xalq, ordu, zaman, məkan.

**Öz**
Modern Türk yazarlarından Nazan Bekiroğlu'nun "Nar Ağacı" adlı romanı, tarihsel belleğin zamanla unutulmadığını yansıtır. XXI. yüzyıl halkının tarihsel gerçeklerini edebiyata yansıtan "Nar Ağacı" romanı, Türkçülük ideolojisini sanat diliyle değerlendirir. Yazar, yirminci yüzyılın başlarındaki Türk halkının çelişkili, gergin tarihsel gerçeklerini yansıtır. Nazan Bekiroğlu'nun romanında tarihsel gerçeklere zaman içinde verdiği tepki modernite açısından önemlidir.
Nazan Bekiroğlu'nun "Nar Ağacı" romanı sadece tarihi olayların sanatsal bir sunumu değildir. Aynı zamanda dramatik bölümlerle milletin milli mücadele yolundaki tarihi anlarına da ışık açılır. Uzak geçmişten bahseden yazarın kahramanı, zamanımızın bir modernidir. Zeki bir lise öğretmeni olan kahraman, yazarın bir prototipi olarak da dikkat çekiyor. Yazarın sunduğu kahraman, halkın ulusal tarihinin sayfalarını modernitenin ışığında sunmaya çalışır.
Nazan Bekiroğlu, siyasi konulara değinirken görüşlerini sıklıkla metin halinde sunar. Yazar, alt metinsel düşüncelerle okuyucunun dikkatini siyasi olaylara çeker. Roman, Türk halkının tarihi alanında topraklarının bölünmesi gibi tarihi hafızaya kazınan olaylara açıklık getirmektedir. Örneğin romanda Türkmençay Antlaşması'na da değinilmektedir. Yazar, bu tarihi olaya karşı tavrını bir polilogla ifade eder. Bu tartışmalı fikirler, bazı belirsiz noktaları açıklığa kavuşturmaya yardımcı olur.
**Anahtar Kelimeler:** Roman, tarih, yaddaş, Türk, halk, ordu, zaman, mekan.

**Abstract**
Nazan Bekiroglu's novel "Pomegranate Tree", one of the modern Turkish writers, reflects the fact that historical memory is not forgotten over time. The novel "Pomegranate Tree", which reflects the historical realities of the people in the XXI century in literature, evaluates the ideology of Turkism in artistic language. The author reflects the contradictory, tense historical realities of the Turkish people in the early twentieth century. İn Nazan Bekiroglu's novel, his response to historical realities over time is important from the perspective of modernity.
Nazan Bekiroglu's novel "Pomegranate Tree" is not just an artistic presentation of historical events. Also sheds light on the historical moments of the nation's path of national struggle with

dramatic episodes. The protagonist of the author, who speaks about the distant past, is a modern of our time. An intelligent, high school teacher, the hero also attracts attention as a prototype of the author. The protagonist presented by the author tries to present the pages of the national history of the people in the light of modernity.
When touching on political issues, Nazan Bekiroglu often presents his views in text. The author draws the reader's attention to political events with subtextual thoughts. The novel clarifies the events engraved in the historical memory, such as the division of their lands in the historical area of the Turkish people. For example, the novel also touches on the Turkmenchay Treaty. The author expresses his attitude to this historical event with a polylogue. These controversial ideas help to clarify some obscure points.
**Keywords:** Novel, history, memory, Turkish, people, army, time, spatial.

**Atıf/Citation:** Şerifova, S. (2022). Nazan Bəkiroğlunun "Nar Ağacı" romanının janr xüsusiyyəti, problematikası və bədii obrazları, *International Journal of Filologia ISSN: 2667-7318 5(8), 1-16.*

## Giriş

Müasir Türk yazarlarından olan Nazan Bəkiroğlu "Nar ağacı" romanında tarixi hadisələri sadəcə bədii şəkildə təqdim etmir. Əsərdə dramatizm dolu epizodlarla millətin milli mücadilə yolunda keçdiyi tarixi məqamlara da işıq salır. Nazan Bəkiroğlu romanın problematikasını həm sevgi problemlərinə, həm də siyasi məqamlara yönəldə bilir. Hər iki mövzu bir -birilə vəhdət şəklində təqdim edilir.

Romanda zaman və məkan anlayışı hadisələrin ictimai, siyasi, mədəni konteksdə müəyyənləşdirilməsini təmin edə bilir. Nazan Bəkiroğlu "Nar ağacı" romanının kontinyumu müxtəlif məkanları əhatə edir. Müəllif romanda zaman axarının iştakçısına çevrilir. Müəllifin zaman axarında iştirakçısına çevrildiyi əsər xalqın milli şüurunda yer tutmuş milli birliyi, səfərbərliyi təlqin edir. Maraqlı məqam isə real hadisələrin irreal hadisə fonunda təqdim edilməsidir.



Nazan Bəkiroğlu "Nar ağacı" romanında xronotop və ya zaman-məkan anlayışında ictimai-siyasi vəziyyəti, obrazlar aləmini, insanların psixologiyasını, təqdim edilən dövrün mənzərəsini və s. təqdim edir. Romandakı hadisələr geniş məkan daxilində olduğu kimi, müxtəlif zamanlarda incə detalları ilə açıqlanır. Nazan Bəkiroğlu real hadisələri irreal hadisələr fonunda təqdim etdiyi epizodda hadisələrin konkret hansı zaman axarında baş verməsini təqdim etməsə də, təqribən hansı dövrdə baş verməsinə aydınlıq gətirir.

Nazan Bəkiroğlu "Nar ağacı" romanında yalnız Türkiyənin ədəbi-mədəni və ictimai-siyasi həyatında həlledici olan dövrü deyil, həmçinin türk xalqlarının həyatında həlledici olan dövr və məqamlara da diqqət yetirir. Müəllif Qərb və ya Şərq dəyərləri kontekstində XX əsrin əvvəllərində baş vermiş siyasi olayları dəyərləndirir. Bir sıra siyasi olayları, müharibələri xalqın taleyüklü hadisəsi olmasını əks etdirməklə, bütövlükdə türk ədəbiyyatına təsirsiz ötüşməməsini açıqlayır. Nazan Bəkiroğlu "Nar ağacı" romanında müharibə mövzusuna müxtəlif aspektdən yanaşaraq açıqlamağa nail olur. Müəllif xalqın milli mücadiləsini əks etdirməklə yanaşı, müharibənin insan psixologiyasına vurduğu mənəvi amillərə də aydınlıq gətirir.

## 1. NAZAN BƏKIROĞLUNUN "NAR AĞACI" ROMANININ JANR XÜSUSIYYƏTI

Nazan Bəkiroğlunun "Nar ağacı" romanının janr xüsusiyyəti diqqəti cəlb edir. Belə ki, əsər romanda romanın kompozisiya quruluşuna müraciət edilərək qələmə alınıb. Qeyd edək ki, belə əsərlər ədəbiyyatda mövcuddur. Məsələn, romanda romanın kompozisiya quruluşuna müraciət M.A. Bulqakovun "Ustad və Marqarita", Y. Səmədoğlunun "Qətl günü" və s. əsərlərdə özünü göstərir. Bu "janrdaxili qarışıqlığı "janr diapazon"unun potensialının digər janrların elementlərinə müraciət etmədən həyata keçirilməsinin formalarından biridir". (Шарифова, 2012: s. 20)

Janrdaxili qarışıqlıq janrın daxili potensialının açıqlanması hesabına həyata keçirilir. Janrdaxili qarışıqlıq romanda bir neçə yolla həyata keçirilir ki, bunlardan biri də romanda roman texnologiyasına müraciətdir ki, "Nar ağacı" romanında bunun şahidinə çevrilirik.

"Roman içində roman"a müraciət edən Nazan Bəkiroğlunun əsəri "dünya ədəbiyyatının yeni paradiqmalarına" (Мирошниченко, 2001: s. 3) uyğun gəlir. "Nar ağacı" romanında da təqdim edilən müxtəlif süjet xəttləri bir-birinə təmas etməyən müxtəlif hadisələrin fonunda təqdim edilir. Bu üç süjet xətti əsəri nəql edən qəhrəmanın, Səttərxanın və Zəhranın həyatları ilə bağlı olan məqamları işıqlandıra bilən süjet xəttləridir. Tartu-Moskva semiotik məktəbinin nümayəndələri "roman içində roman"a "ədəbi modelləşdirmənin semiotik konsepsiyası"nda (Сегст, 1981: s. 153) dəyişikliyin nəticəsi və "metamətn" kimi yanaşırdılar. "Metamətn verilmiş mətnin yaradılması vəziyyəti problemini aktuallaşdırır..." (Левин, 1998. s. 298) "Nar ağacı" romanında hadisələrin təsviri metamətn kimi özünü göstərir. Əsərdəki hadisələrin təsvirində bunu müşahidə edirik.

Nazan Bəkiroğlu fərqli zaman və məkan müstəvisinə malik, bir-biri ilə təması olmayan süjetlər əsasında hadisələri təqdim edir. Əsərin "Yol arkadaşım", "Son-ra" kimi başlıqlı bölümləri müasir dövrü əks etdirir. Əsərin "Nar ağacı", "Tebriz'de kapaliçarşi", "Gülcemal", "Sessizlik kulesi", "Ara istasyonlar", "Trabzon'dan çiktim başim selâmet", "Gül küpeler", "Kirik kafiye", "Sofya'nin kitapçi dükkâni", "Kahve ocağı", "Gölge sabahı" və s. adlı bölümündəki hadisələr keçmişlə əlaqəli şəkildə təqdim edilir. Qeyd edək ki, romandakı ayrı-ayrılıqda öz süjet xətti olan və süjet xəttləri bir mərkəzdə birləşən hadisələr on bir kitab şəklində təqdim edilir. Həmin hadisələr müxtəlif insanların talelərini əks etdirir. Əsərdəki hadisələr müasir və keçmiş zaman prizmasından təqdim edilir. Həmçinin zahirən təması olmayan süjet xəttlərinin təqdimində müxtəlif insan həyatları əks etdirilir. Məsələn, türk tədqiqatçısı Fərhad Qorxmaz (Ferhat Korkmaz) romanda üç süjet xəttinin üç hekayə şəklində təqdim olunmasına toxunur. Fərhad Qorxmaz bunlardan biri Səttərxan, biri Zəhra və üçüncü rəvayətçinin hekayələri olmasını qeyd edir: "Romanın "üçgen" (triangle) bir deseni var olduğu düşünüldüğünde geniş kenar, Settarhan'ın öyküsüdür. İkinci kenar ise Zehra'nın öyküsüdür. Romandaki desenin dinamik olarak ötekilerden ayrılan üçüncü parçası ise anlatıcının evrenidir" (Korkmaz, 2014: s. 931).



Əsərdə zaman və məkan anlayışları da diqqətdən yayınmır. Onlar hadisələrin ictimai, siyasi, mədəni konteksdə müəyyənləşdirilməsini təmin edir. "Nar ağacı" romanının kontinyumunu müxtəlif məkanlar, əsasən, Azərbaycanın, Türkiyənin, İranın, Gürcüstanın şəhər və kəndlərini əhatə edir. İstanbul, Trabzon, Bakı, Təbriz, Yezdi, Taxt-ı Süleyman, Şiraz, İsfahan, Tiflis, Batumi kimi şəhərlər keçmiş və müasirlik prizmasından təqdim edilir. Romanın personaj və hadisələrin zaman və məkan kontekstində təqdim edilməsi maraq doğurur.

Nazan Bəkiroğlu "Nar ağacı" romanında xronotop və ya zaman-məkan anlayışında ictimai-siyasi vəziyyəti, obrazlar aləmini, insanların psixologiyasını, təqdim edilən dövrün mənzərəsini və s. təqdim edir. Romandakı hadisələr geniş məkan daxilində olduğu kimi, müxtəlif zamanlarda detalları ilə açıqlanır. Romanda tarixi hadisələr tez-tez xatırlanır. Müəllif tarixi hadisələri bəzən geniş şəkildə, bəzən isə konkret cümlələrlə nəql və izah edir.

Yazıçı tarixi hadisələrə nəzər salarkən, bəzi siyasi məqamlara da qiymət verir. Bu Gürcüstanda aparılan siyasətin müəllif tərəfindən dəyərləndirilməsində özünü göstərir: "...Bolşeviklerin hesaba katmadığı bir şey vardı; Gürcülerin millî hassasiyetleri çok yüksekti".

Nazan Bəkiroğlu real hadisələri irreal hadisələr fonunda təqdim etdiyi epizodda hadisələrin konkret hansı zaman axarında baş verməsini təqdim etməsə də, təqribən hansı dövrdə baş verməsinə aydınlıq gətirir. Məsələn, təqdim etdiyi hadisənin təqribən 1900-cı illərdə baş verdiyini əks etdirir: "...insanların giyim kuşamlarından, Meydan'daki binalardan, havagazı

sokak lâmbalarından, toprak zeminden filân 1900'lü yılların başında olduğumu az çok anlayabildim…”

Nazan Bəkiroğlu təqdim etdiyi zamanı konkret şəkildə də təqdim edir. Hadisələrin hansı zamanda baş verməsini göstərir: “...hatırladığım tarihi, tellâlın haberiyle birleştirince 1 Ekim 1912'de olduğumuzu anladım.” Müəllif hadisələrin konkret olaraq, 1 oktyabr 1912-ci il olmasını göstərir. Yazıçının əsərdə təsvir etdiyi məkanın tədqiqatçılar tərəfindən geniş coğrafiyanı əhatə etməsi vurğulanır. Məsələn, tədqiqatçılar qeyd edir ki, əsərin “mekânı klasik romanda olduğu gibi geniş bir coğrafyadır. Bu coğrafyanın batı ucunda İstanbul, doğu ucunda Bakü, kuzeyinde Batum, güneyinde ise İran’ın bugün arkeolojik sit alanı olan Taht-ı Süleyman adlı yerleşim yeri vardır” (Korkmaz, 2014: s. 930).

Əsərin əvvəlində müəllifin “elimdeki zarfın arka yüzündeki adrese baktım. Otuz yıl önce postaya verildiği yerin harflerini okudum teker teker: Te-hı-te; Taht. Sin-lâm-ye-mim-elif-nûn; Süleyman” fikirlərində hadisələrin başlanğıcına diqqət yönəldilir. Müəllif “Taht-ı Süleyman'dan gelmiş” məktubdakı “Taht-ı Süleyman” anlayışına aydınlıq gətirməklə, həm də əsərdə məkan kimi təqdim edir. Bu məkanın İranda məkan yeri olmasını açıqlamaqla, əsərin problematikasının müəllif uydurmasının deyil, real hadisələr zəminində yaranmasına işarə edir.

Əsərdəki hadisələrin müxtəlif zaman və məkan içərisində təqdiminə müəllif münasibəti də maraq doğurur: “…kurguyla gerçek, tarihle bugün, resimle hayat, düşle hakikat arasında bir köprü uzatmıştım”. Əsərdə müxtəlif hadisələrin şahidi olmuş müəllifin keçirdiyi hiss və düşüncələr irrealıqla reallığın kəsişmə nöqtəsi kimi təqdim edilir. Oxucu hadisələrin həm müəllif düşüncəsinin məhsulu olmasına, həm də real hadisələr zəmində yaranması kimi iki hiss arasında qalır. Buna rəğmən reallıq üstünlük təşkil edir. Baş verən hadisələrin müxtəlif zaman və məkan axarında baş verməsi özünü göstərir. Müasir dövr zaman axarında keçmiş dövr hadisələrinin şahidi kimi hadisələri nəql etməsi reallıq kimi özünü əks etdirir.



Əsərdə hadisələrin başlanğıcı kimi “Yol arkadaşım” başlıqlı bölümdə uzun tarixə malik olan məktub göstərilir. Müəllif romanının həmin məktubun ünvanına çatması niyyətilə hadisələri nəql edir. Hadisələrin məktubla başlaması heç də əsərin epistolyarlığına dəlalət etmir.

Zaman kəsiklərində müxtəlif insan talelərini əks etdirən roman xalqın milli yaddaşını əks etdirir. Həmin “kitab”larda həyat dolu Səttərxanın Azam, Sofiya, Zəhra ilə bağlı olan hadisələrə şahidlik edirik.

Nazan Bəkiroğlu “Nar ağacı” romanında tarixi hadisələri sadəcə bədii şəkildə təqdim etmir. Əsərdə hadisələr dramatizm dolu epizodlarla millətin milli mücadilə yolunda keçdiyi tarixi məqamlara da işıq salır. Müəllif əsərin qələmə alınması istəyinin Azərbaycanın paytaxtı olan Bakıda başlamasını qeyd etməsi səbəbsiz deyil. Müəllif bununla da xalqın milli birliyə malik olmasını bir daha təsdiqləyir.

Əsərdə diqqəti cəlb edən məqamlardan biri də əsərin adıdır. Müəllif əsəri “Nar ağacı” adlandırıb. Bəllidir ki, nar haqqında inanclar Türk xalqları arasında yayılıb. Nar ağacı inanclarda istək, dilək ağacı, həm də gözəllik qaynağı, bolluq, bərəkət rəmzi, əbədilik simvolu kimi özünü göstərməkdədir.

## 2. NAZAN BƏKIROĞLUNUN “NAR AĞACI” ROMANININ PROBLEMATIKASI

Nazan Bəkiroğlunun “Nar ağacı” romanının problematikası həm sevgi problemlərinə, həm də siyasi məqamlara yönəldilir. Hər iki mövzu bir-birilə vəhdət şəklində əks etdirilir. Əsərin problematikasında siyasi məqamlara toxunan yazıçı fikirlərini mətnaltı düşüncələrlə təqdim

edir. Mətnaltı düşüncələrilə siyasi olaylara diqqət yönəldir: “Ne ben otuz yıl önceki benim ne de İran o eski İran. Değişmeyen tek makam: Taht-ı Süleyman”.

Tarixi yaddaşın unudulmaması Nazan Bəkiroğlunun “Nar ağacı” romanında əksini tapır. XXI əsrdə xalqın tarixi gercəkliklərini ədəbiyyatda inikas etdirən “Nar ağacı” romanı türkçülük ideologiyasını bədii dillə dəyərləndirir. Müəllif türk xalqının XX əsrin əvvəllərində üzləşdiyi ziddiyyətli, gərgin tarixi gerçəkliklərini əks etdirir. Nazan Bəkiroğlunun romanında tarixi gerçəkliklərin zaman axarında cavablandırılması müasirlik prizmasından əhəmiyyət kəsb edir.

Müəllif insanların taleyini dəyişmiş tarixi hadisələrə, siyasi olaylara uzun-uzun fikirlərlə deyil, qısa cümlələrlə aydınlıq gətirir. O dövrün mənzərəsini qısa şəkildə təqdim edir. Nazan Bəkiroğlu əsərdə tarixi olaylara nəzər etməklə, kökə, soya bağlılığı qabardır. Bu özünü əsərin qəhrəmanının dədə-baba torpağına qayıtmaq istəyində göstərir. Yazıçı Trabzonda türklərin yaşamasına toxunur. Qəhrəmanın dədə-baba torpağına qayıdış istəyini əks etdirməsi türklərin geniş coğrafi areala yayılmasının göstəricisidr. Türklərin qədimdən geniş ərazi böyüklüyünə malik olmasını diqqətə çatdırır.

Müəllifin romanın problematikasında hadisələri milli kökə bağlaması, sadaladığı şəhərlər arasındakı tarixi bağlılıq olmasına işarə etməsi özünü göstərir. Tacirin, daha doğrusu Səttarxanın keçdiyi İran-Azərbaycan-Gürcüstan-Türkiyə yolu gözümüz önündə tarixi İpək yolunu canlandırır. Bu və digər dövlətləri iqtisadi cəhətdən birləşdirən İpək yolunu: “...en çok kullanacağım cümle dökülüyor: “Tacirin yolu acaba buradan geçti mi?” Müəllif ünvanladığı ritorik sualla oxucusunun diqqətini məhz bu məqama yönəltməyə cəhd edir. Tarixdə iz buraxmış “İpək yolu”na…

Nazan Bəkiroğlu tarixin səhifələrində türk torpaqlarının parçalanması məqamına da oxucunun diqqətini yönəldir: “Türkiye kapısından geçiyoruz. ...Sırtım Ağrı Dağı'na, yüzüm İran'a çevirili. Ne garip! Burada Türk bayrağı, orada İran bayrağı. Bu toprakları şu dikenli teller mi ayırıyor? Oysa şu ağacın kökü bu tarafta, dalları öbür tarafa sarkmış, ağacın umurunda değil”. Müəllif ağaçın köklərinin bir dövlətin sərhədində qalmasını, budaqlarının başqa sərhədə keçməsini əks etdirməklə, millətin sərhədlər bölgüsünə rəğmən, bir kökdən olmasına işarə edir.



Romanın problematikasında Azərbaycan xalqının tarixi məkanlarına da aydınlıq gətirilir. Bu məqamlar özünü bəzən açıq-aydın şəkildə, bəzən isə üstüörtülü, mətnaltı söz və ifadələrlə əksini tapır. Məsələn, Bakıdan gələn Yasəmənin dediyi fikirlər haqqında düşüncələr romanda Təbrizin tarixən Azərbaycan torpağı olmasına işarədir: “...Karabağ'a uzaktan baktım. Bizi ayıran Aras nehrini geçtim. Burada da misafirim”. Əsərdə dədə-baba torpaqlarına qonaq gəlmək kimi bir hissin necə ağır olması əsərin problematikasında diqqəti özünə cəlb edir. Azərbaycanla bağlı siyasi məqamlar müəllif tərəfindən tez-tez xatırlanır.

Romanın problematikasında Təbrizin tarixən Azərbaycanın olması məqamına ya üstüörtülü və ya da açıq şəkildə işarə edilir: “Tebrizli Acem Ali”. Müəllif “Acem Ali”nin Təbrizdən, Azərbaycan Türklərindən olmasını açıq aydın şəkildə təqdim edir.

Müəllif əsərin problematikasında başqa xalqların milli-mənəvi dəyərlərini əsk etdirən tarixi-mənəvi sərvətlərini özünküləşdirilməsi məqamını işıqlandırır. Əsərdə İranın ən gözəl xalılarının Azərbaycanda toxunulması, Azərbaycan xalılarının dünya arealında başqaları tərəfindən özünküləşdirilməsi qabardılır. Nazan Bəkiroğlu əsərin problematikasında Azərbaycan xalılarının İran xalıları kimi təqdim edilməsi faktına toxunur. Müəllif əsərin problematikasında Səttərxanın “Halı bizim sanatımız, servetimiz ve asaletimizdir” fikirləri ilə yalnız xalçalıq sahəsinin inkişaf etməsini deyil, həm də millətin milli sərvəti və mənliyi, ləyaqəti olmasını açıqlayır.

Nazan Bəkiroğlu romanın problematikasında Azərbaycan xalqının tarixi arealında torpaqlarının parçalanması kimi tarixi yaddaşa həkk olunmuş Türkmənçay müqaviləsinə toxunur. Müəllif poliloqlarla bu tarixi hadisəyə münasibətini bildirir. İnsanların mübahisə doğuran bu fikirləri bəzi qaranlıq məqamların açıqlanmasına yardım edir: "...Rus'u, İngiliz'i, Fransız'ı başımıza belâ eden Türkmençay Antlaşmasında Azerbaycan'ın yarısı gitti". Əsərdə Azərbaycan torpaqlarının parçalanmasının böyük bir itki olması əks etdirilir: "...Yarısı İran'da kalmış yarısı Rusya'nın payına düşmüştü".

Romanın problematikasında türkün bir-birinə yardımı da qabardılır. Müəllif "Bakti Cemiyet-i Hayriyesi" adı altında Azərbaycandan olan gənclərin türk mühacirlərinə yardım etmələrini əks etdirir. "..."Sizler, kimlersiniz?" "Biz" dedi genç adam, "Azerbaycan Türklerinden, Bakti Cemiyet-i Hayriyesi'ndeniz". Müəllif türk xalqlarının bir-birinə qardaş yardımı etməsini müxtəlif epizodlarda da təqdim edir. Məsələn, Osmanlı əsgərlərinin ruslara əsir düşmə epizodunu romanda təqdim edən müəllif, Türk Ordusunun Azərbaycana yardım etməsinə aydınlıq gətirir: "...Osmanlı askerleridir bunlar, Kafkas cephesinde Ruslara esir düşen askerler".

Nazan Bəkiroğlu "Nar ağacı" romanında XX əsrin əvvəllərində Bakının Qaraşəhər deyilən məkanında insanların kasıb təbəqəsinin olmasını əsərinin problematikasında canlandırır: "Aras nehrinin kuzeyine geçen yüzlerce İranlının, Azerbaycanlının da toplandığı yerdi Karaşehir. ...Ümitleri, hayalleri ölü balıklar gibi kıyıya vurunca bir milliyetleri kalmamıştı hiçbirinin ve şimdi tek ümmete mensuplardı: Dilenci". Yazıçı kasıbçılıq içində əziyyət çəkən insanları konkret olaraq bir adla adlandırır: Dilənçi...

Romanın problematikasında dinlərin təbliği geniş yer tutur. Əsərdə heç bir dinə ikrah hissi təbliğ edilmir. Müəllif müxtəlif dinlərin özlərinə məxsus xüsusiyyətlərinə aydınlıq gətirir. Məsələn, İslam, xristian, zərdüştlük, nəqşibəndlik və s. kimi din və təriqətlərə münasibət bildirir. Romanın problematikasında əsma və səs ilə zikr etməyən nəşqibəndliyə müəllif münasibəti maraq doğurur. İslam dini və ona xas əməllər roman boyu təbliğ edilir. Məsələn, İsmayılın müharibəyə yollanarkən Zəhranın ona verdiyi dəftərə İslam dininə xas cümlənin yazılmasında bunun şahidinə çevrilirik: "...mor bir sabit kalemle ve acemi bir yazıyla harfleri sağdan sola doğru istiflemeye başladı. Eşhedü cümlesini tek satırda tamamladı:

Eşhedü eti lâ ilahe illallah ve eşhedü enne Muhammeden rasulullah".

Müəllif romanın problematikasında 680-ci ildə Kərbəla şəhəri yaxınlığında İslam peyğəmbəri Məhəmmədin nəvəsi Hüseyn ibn Əli ilə Əməvi xəlifəsi I Yezid arasında baş vermiş döyüşə toxunur. Qarşıdurma zamanı Hüseynin öldürülməsinin şiə təriqətinin tərəfdarları tərəfindən ölkələrində hər il Aşura günü adı ilə qeyd edilməsini göstərir. Nazan Bəkiroğlu əsərdə Aşura gününü təsvir edir: "Muharrem ayında tümüyle Kerbelâ için yas evine dönüştürülebilirdi. O zaman duvarlar simsiyah kumaşlarla kaplanır, her şey değişir, mersiyeler bütün söz varlığının yerini alırdı. On gün boyunca ruzehanîler okunur, taziyeler temsil edilir..."

"Nar ağacı" romanının problematikasında ən qədim dinlərdən olan zərdüştlüyə münasibət əksini tapır. Müəllif romanda zərdüştlərin dünyasını dəyişmiş insanı dəfn etmələri haqqında dini ayinlərini bədii dillə təqdim edir. Nazan Bəkiroğlu zərdüştlərdə ölüləri necə son mənzilə yola salınması məqamlarını onların dinlərinin tərkib hissəsi olması kimi göstərir. Mərasimdən sonra meyidin asla gecəyə saxlanılmaması və "Dahma'ya" götürülərək, "ölülerini açık havada yırtıcı kuşlara bıraktıklarına" qədər izah edir. Müəllif Zərdüştlərin inanclarına aydınlıq gətirir.

Əsərin problematikasında XIX əsrin sonu XX əsrin əvvəllərində nəşr edilmiş qəzet-jurnalların adlarının sadalanması, dəyərləndirilməsi xalqın milli şüurunda əvəzsiz rol oynamış, tarixini əks etdirən mətbuatın rolunu açıqlayır. Müəllif xalqın tarixini, ictimai-siyasi həyatını, ədəbiyyat və mədəniyyətini təqdim etməyə nail olan mətbu orqanlarının məramını da

aydınlaşdırır: “...Yeni Füyüzat, Şelâle, Kardaş Kömeği; İstanbul'dan gelme pek çok dergi, gazete, kitap”. Müəllif türk xalqının təhsil, mədəniyyət sahəsində müasirləşməsini təbliğ etmiş İsmayıl Qaspıralının 1883-cü ildə qurduğu, 1918-ci ilə qədər nəşr etdimiş “Tərcüman” adlı qəzetini romanda xatırlayır. Ədibin “Dildə, fikirdə, işdə birlik!” şüarı ilə türk xalqlarını birlik və həmrəyliyə çağırışına da toxunması bu fikrin günümüzdə də öz aktuallığını qorumasına işarədir. Müəllif mətbuat orqanlarında dərc olunmuş yazıları əks etdirməklə ədibin mütərəqqi fikirlərinin millətin tarixində müəyyən rol oynamasını əks etdirir.

Yazıçı əsərin problematikasında ədəbi dəyərlərin təbliğinə geniş yer ayırır. Millətinin qan yaddaşında iz buraxmış ədiblərin şəxsiyyət və yaradıcılıqlarına əsərin problematikasında tez-tez müraciət edir. Məsələn, orta əsrlər ədəbiyyatının, xüsusilə də qəzəl janrının görkəmli nümayəndələrindən olan Sədi Şirazi yaradıcılığına əsərin problematikasında tez-tez müraciət olunur. Nazan Bəkiroğlu əsərdə şəxsiyyəti haqqında az məlumat əldə olan XIV əsr sufi şairi, qələmə aldığı qəzəllərlə mistik düşüncə və məhəbbəti mədh etmiş Hafiz Şirazi yaradıcılığının xatırlaması ədibə verilən dəyərdir.

Nazan Bəkiroğlu romanın problematikasında tarixi məkanlara da aydınlıq gətirir. Atəşgahla bağlı müəllifin verdiyi izahat əsərdə məkan haqqında təəssürat yaradır: “Ateşgâh, Zerdüştîlerin ibadet mekânları”. Müəllif Atəşgahın yalnız Bakıda olmadığına toxunur. Bakıdakı Atəşgahı əsərdə canlandırdığı kimi, “Taht-ı Süleyman”da olan Atəşgaha da aydınlıq gətirir: “Taht-ı Süleyman'da da bir teşgâh var. Çok eski ama çok ihtişamlı”.

Müəllif romanın problematikasında şəhərlər haqqında izahat verir: “…tabelânın üzerinde “Elizavetpol” ismini okudu. Rus işgalinden sonra ismi değiştirilen Gence'ydi burası; Kuzey'in Bakü'den sonra ikinci büyük şehri, Nizamî'nin memleketi, Hamse 'nin yurdu” fikri ilə Gəncə şəhəri, həmçinin də Nizami Gəncəvinin Azərbaycan şairi olmasını əks etdirir.

“Nar ağacı” romanında xalqın yaddaşında iz və yer buraxmış ədəbi hadisələrə və məqamlara dəyər verilməsi yer alır. Müəllif romanda xalq yaradıcılığının mühüm bir hissəsi olan aşıq yaradıcılığına toxunur. Əsərdə məhəbbət dastanı olan “Əsli və Kərəm” dastanına qısaca da olsa ekskurs edilir. 

Ədəbi dəyərlərə müəllif tərəfindən yüksək qiymət verilməsi diqqətdən yayınmır. Biz bunu müəllifin müxtəlif ədiblərin adlarını, onlara aid fikirləri işlətməsində şahid oluruq: “Beş Şehir 'in “İstanbul” bahsinde son bölümü sınıfta okurken oynardık bu oyunu, Tanpınar'ın “mazi ile hangi seviyede ilişki kurmamız gerektiğini” irdelerken uyardığı şeyi anlamaya çalışırken.” Müəllif Tanpınara aid fikri romanda təqdim etməklə həm təqdim etdiyi hadisəni, həm də ədəbi dəyərlərə qiymət verməsini açıqlayır. Müəllif Türk ədəbiyyatının nümayəndələrinin yaradıcılıq yolunu da göz önündə canlandırır.

Nazan Bəkiroğlu Türk ədəbiyyatının klassik nümayəndələrini də sadalamaqla ədəbiyyatın inkişaf yolunun zənginliyini vurğulayır. Yazıçı kitab rəflərində “Ekrem'leri, Ahmet Midhat'ları, Halit Ziya'ları, Mehmet Celâl'leri, Safvet Nezihî'leri” olduğunu fəxarətlə qeyd edir.

Nazan Bəkiroğlu “Nar ağacı” romanının problematikasında nəzm nümunələrinə tez-tez müraciət etməsi ilə diqqəti cəlb edir. Müəllif ya kiminsə şeir nümunəsinə, ya hər hansı xalq mahnısına və s. nəzm nümunəsindən bir parçaya müraciət edir. Məsələn, romanda müəllifin “Trabzon'dan çıktım başım selâmet “mahnısına müraciət etməsi milli ruhun, milli yaddaşın məhv olmadığını əks etdirir: “Trabzon'dan çıktım başım selâmet

Çavuşlu'ya vardım koptu kıyamet”.

“Samavar qəsidəsi” də xalq yaddaşının qorunduğunun təcəssümüdür. Yaxud Hafiz Şirazidən beyitin qələmə alınması… Hafiz Şirazinin yaradıcılığına mütəmadi müraciət edilməsi, bədii

nümunələrdən parçalar verilməsi dahi şairə olan sevgi və ehtiramdan irəli gəlir. Müəllif Hafiz Şirazinin nümunəsini təqdim etməklə, əsərin qəhrəmanının da iç aləmini, keçirdiyi hissləri təqdim edir: "Yol boyunca Hafız'dan beyitler geçiyor aklımdan".

Müəllif dördlük nümunələrinə də romanında yer ayırmış, həmin dördlüklər vasitəsilə əsərin problematikasına toxunur:

Ey Gülcemal Gülcemal

Savruluyi dumanın

Aldın gittin yârimi

Yoktur senin imanın".

Nazan Bəkiroğlunun əsərdə istifadə etdiyi nəzm nümunələri əsərin problematikasına əlvanlıq qatır.

## 3. NAZAN BƏKIROĞLUNUN "NAR AĞACI" ROMANININ BƏDII OBRAZLARI

Nazan Bəkiroğlunun "Nar ağacı" romanının bədii obrazları maraq kəsb edir. Əsərdə obrazlar iki mənada, yəni həm məhdud mənada, həm də geniş mənada işlənilir. Məhdud mənada romanda təqdim edilən obrazlar say çoxluğu ilə diqqəti cəlb edir. Məhdud mənada təqdim edilən obrazların hamısı əsərdə yaddaqalan obrazlara çevrilir: Səttərxan, Azam, Zəhra, Piruz, Sofiya və d. Romanda geniş mənada təqdim edilən surətlər insan həyatını inikas etdirir. Nazan Bəkiroğlunun yaratdığı geniş mənada olan surətlərə müsbət və mənfi surətlər, əşya surətləri və s. surətlər daxildir.

"Nar ağacı" romanında uzaq keçmişdən bəhs edən müəllifin qəhrəmanı yaşadığımız dövrün müasiridir. Ziyalı, ali məktəb müəllimi olan qəhrəman həm də müəllifin prototipidir. Müəllifin təqdim etdiyi baş qəhrəman xalqın milli tarixi səhifələrini müasirlik işığında təqdim etməyə cəhd edir. Buna da müvəfəqiyyətlə nail olur.



Müəllifin özü baş obraz kimi romanda zaman axarının iştirakçısına çevrilir. Nəzərdən keçirdiyi fotolardakı hadisələri canlandıran müəllif özünü məhz həmin hadisələrin içərisində görür. Müəllifin zaman axarında iştirakçısına çevrildiyi əsər xalqın milli şüurunda yer tutmuş milli birliyi, səfərbərliyi təlqin edir. Maraqlı məqam isə real hadisələrin irreal hadisə fonunda təqdim edilməsidir.

Nazan Bəkiroğlu romanda qəhrəmanının hiss-həyəcanları fonunda onların obrazlarını təqdim edir. Bu təqdim əksər zaman qəhrəmanın düşüncələri ilə əksini tapır. Təbrizdən gəlib Trabzona yerləşmiş insanın hissləri ilə yanaşı keçirdiyi həyat yolu fonunda obrazını canlandırır. Müəllif obraza diqqət yönəltmək üçün oxucunu düşündürməyə vadar edən sual ünvanlayır: "... Ne olmuştu da Tebrizli tacir yerini yurdunu terk etmiş, evinden ocağından, anasından atasından kopmuştu? Ailenin haylaz çocuğu muydu, istenmeyen kişi mi olmuştu?" Müəllif hadisələrə münasibətini bildirməklə qəhrəmanın iç dünyasını, keçirdiyi hissləri açır: "... tek mektup müstesna. Trabzon'a yerleştiği daha ilk yıllarda aldığı bu mektupta ona "Geri dön" denmişti".

Nazan Bəkiroğlu "Nar ağacı" romanında tarixi şəxsiyyətlərin epizodik obrazlarını yaradır. Şah İsmayıl Xətai obrazını müəllif rəğbətlə təqdim edir. Müəllif Şah İsmayıl Xətainin tarix qarşısındakı rolunu bir cümlə ilə ifadə edir: "...Azerbaycan'ın güneyini ve kuzeyini birleştiren, devletin dilini Türkçe, mezhebini Şiîleştiren Şah İsmail Tebriz'i de payitaht yapmıştı". Yazıçı Azərbaycan Səfəvilər dövlətinin banisi, Azərbaycan torpaqlarını birləşdirirərək, mərkəzləşdirilmiş Azərbaycan dövlətini yaratmış Şah İsmayıl Xətainin xalqımızın dövlətçilik tarixindəki roluna nəzər salır.

Müəllifin əsərdə təsvir etdiyi əsas qəhrəmanlarından olan, Trabzona yerləşmiş Səttərxan (Setterhan) Məhəmmədəli şah diktaturasına qarşı Məşrutə inqilabının görkəmli xadimi, əsas liderlərindən olmuş xalq qəhrəmanı Səttərxanın adaşıdır. Nazan Bəkiroğlu Səttərxanın həyat yolunu izləyərkən retrospektiv xüsusiyyətləri ilə əsərin mətnində çoxqatlılıq yaratmaqla, əsərin alt qatdakı ideyasını üzə çıxarır. Səttərxan obrazı ilə tarixi zaman və məkana aydınlıq gətirməklə tarixi olaylara nəzər salır.

Romanda qəhrəmanın adaşı, Məşrutə inqilabının lideri olmuş Səttərxanın xatırlanması onun tarixi obrazını göz önündə canlandırır. Tarixi şəxsiyyəti xatırlayan müəllif onun inqilabi fəaliyyətini də dəyərləndirir: "... Settarhan, onunla aynı ismi taşıdığı Meşrutiyet kahramanını bundan on yıl evvel dünya gözüyle ilk ve son kez gördüğünde on altı yaşındaydı". Müəllif özünəməxsus şəkildə tarixi şəxsiyyətlərin obrazlarını romanda təqdim edir. Bununla da tarixin milli şüurda yaşamasını göstərir.

Nazan Bəkiroğlu romanda xalqın milli şüurunda özünəməxsus yer tutmuş Türk Ordusunun obrazını da yaradır. Müəllif möhtəşəm Türk Ordusunun məğlubiyyətə uğramasını, qələbə qazanmasını, mərhumiyyətlərlə üzləşməsini, əzablı yollardan keçməsini və s. məqamlarına işıq salır. Əsərdə müəllif ağır müharibənin getməsinə rəğmən Türk Ordusunun ləyaqətlə mübarizə aparmasını göstərir: "…Türk ordusu Rusların aldığı şehri Rum ve Ermeni çetelerinden geri almıştı bir bakıma. Osmanlı ordusu yorgundu, yetişemiyor ama canını dişine takıyordu. Ve sonunda olmuştu işte, Trabzon kurtulmuştu". Əsərdə İsmayılın bacısı Zəhraya yazdığı məktublarda Türk Ordusunun obrazı canlandırılır. Türk Ordusunun keçdiyi döyüş yolu, üzləşdiyi iztirablar və s. məktublarda təsvir edilir: "...Çatalca varsa İstanbul vardı ve İstanbul varsa Osmanlı vardı".

Romanda müəllif İsmayılın məktubu ilə müharibədəki əsgərlərin vəziyyətini göz önündə canlandırır. İsmayıl Türk Ordusunda vuruşmuş əsgərlərin ümumiləşdirilmiş obrazı kimi təqdim edilir. Müəllif onun timsalında əsgərlərin döyüş məqamında üzləşdikləri ağır durumlarını, çarəsizliklərini qabardır. Nazan Bəkiroğlu döyüşən Türk Ordusunun əsgərlərinin real vəziyyətlərini, problemlərlə dolu keçməkeşli döyüş yollarını səmimiyyətlə oxucularına təqdim edir. Tarixi olaylara qiymət verən müəllif Türk Ordusunun əsgərlərinin keçdikləri döyüş yollarına aydınlıq gətirir. Nazan Bəkiroğlunun romanda Türk Ordusunun üzləşdikləri mərhumiyyətlərə biganə qalmır. Tarixi məqamlarla Türk Ordusunun müharibədə üzləşdikləri çətinlikləri əks etdirir. Döyüşə gedən, lakin itkin xəbəri verilən əsgərlərin ümumiləşdirilmiş obrazı romanda əksini tapır. Müəllif övladlarını, doğmalarını vətən uğrunda şəhid vermiş insanların keçirdikləri hisslərlə yanaşı, onların üzləşdikləri problemlərə aydınlıq gətirir. Yazıçı itkin düşən əsgərlərə şəhid olması haqqında sənədin verilməməsini Türk Ordusunun əsgərlərinə olan etinadsızlıq kimi dəyərləndirir. Canını Vətən yolunda qurban vermiş şəhidlərin "Hayatı da mematı da meçhuldür" cümləsi ilə dəyərləndirilməsini cəmiyyətin nöqsanı kimi təqdim edir: "Canını kendisi için veren tıfıl askerine devletin verebildiği belge, Meçhul Asker. He mi?"

Nazan Bəkiroğlu romanda yaralı döyüşçülərin xəstəxanalar tərəfindən qəbul edilməməsi məqamını faciə kimi dəyərləndirir. Belə dəyərləndirməsində haqlıdır. Vətəninin hər qarış torpağı, yaşından asılı olmayaraq hər vətəndaşı üçün canını qurban verməyə hazır olan yaralı döyüşçülərin xəstəxanaya qəbul edilməməsi milli faciədir: "…Hacıbey'i kabul edecek bir hastane aramışlardı. Hastaneler tümüyle doluydu ve her kapı yüzlerine kapanıyordu. Her yanda Hacıbey gibi yüzlercesi vardı çünkü. Nihayet yeni açılmış bir hastane onları kabul etmişti ama iş işten çoktan geçmiş, Hacıbey kendine geldiğinde sağ bacağının kasıktan kesildiğini öğrenmişti".

Müəllif erməni yaraqlılarının türk xalqına qarşı etdikləri quldurluqlara rəğmən türklərin ermənilərə qarşı humanist əməlləri türk xalqının ümumiləşdirilmiş obrazını yaradır. Əsərdə

müəllif türk ailəsi tərəfindən erməni uşağının qorunması epizodunda türk millətinin mənəvi aləminə aydınlıq gətirir. Böyükxanımın (Səbirənin) erməni qonşusunun qızını qoruması türk xalqının xeyirxah əməllərinin, türklərin mərhəmətli olmasının göstəricisidir. Müəllif əsər boyu türklərin yadda qalan obrazlarını canlandırır. Bu obrazın geniş təqdimatında, ya da, qısa təqdimatında özünü göstərir. Müəllif romanda "Acəmoğlu" məfhumuna aydınlıq gətirir. Müəllif İranda azərbaycanlıların yaşaması faktına toxunaraq, ümumtürk məfhumunu qabardır: "...Ne garip, İran'da Türk'tü burada Acem!" Müəllif Çərkəz Arslanbəyin dililə "Acəmi"lərin kimlərin adlandırılmasını açıqlayır: "…İran toprağından gelen her şeye Acem deriz. Türk de olsa Fars da olsa Kürt de olsa". Müəllif bir daha İran ərazisində Azərbaycanlıların olması faktını işıqlandırır.

Nazan Bəkiroğlu əsərdə erməni və rumların (yunanlar) türk xalqının başına açdıqları faciələr vasitəsilə onların obrazlarını yaradır. Türk xalqının milli şüuruna qanlı tarixi səhifələr kimi yazılmış məqamlara erməni obrazları ilə aydınlıq gətirir. Müəllif erməni yaraqlısının dili ilə onların daxili aləmlərini açır: "…Bilmediğin bir adımız daha var bizim. İntikam Tugaylarıyız biz". Türk xalqına qarşı apardıqları soyqırımda erməni özünü "intikam Tugayları" adlandırır. Müəllif onların "intikam Tugayları" olmaları ilə onların qaniçən cəlladlar olmasına toxunur.

Müəllif romanda Təbriz, Bakı, Trabzon, Tbilisi, Batumi, Yezdi və s. məkanların təsviri zamanı onları obraz səviyyəsinə yüksəldir. Məsələn, müəllif Yezdinin obrazını göz önündə canlandırır, Zərdüştlərin yaşadığı şəhər olması məqamına toxunur: "Yezd, Zerdüştîlerin de yaşadığı şehirdir".

Romanda diqqəti cəlb edən "türkdilli müsəlmanların" məskəni olmuş və Azərbyacan dilinin "lingua franca" qismində çıxış etdiyi Tbilisi şəhərinin obraz səviyyəsində təqdim edilməsidir. Tiflisi müəllif özünəməxsus şəkildə təqdim edir: "...Kura ırmağının iki yakasına kurulmuş bir şehirdi Tiflis".

Nazan Bəkiroğlu romanda Təbrizin, Trabzonun tarixi dövrlərini əks etdirən məkanlarını təqdim etməklə obrazlarını yaradır, onların nəyə qadir olmasını göz önündə canlandırır. Müəllif təsvir etdiyi epizodlarda Trabzon bazarını Trabzonun ayrılmaz hissəsi kimi "...İç içe açılan dik sokaklarda meslek erbabı kendi nizamlarında sıralanmıştı", Təbrizə xas xüsusiyyəti "Tebriz'in yirmi kadar kervansaraydan ibaret Kapalıçarşı'sı Binbir Gece!" kimi bədii dillə təqdim edərək obraz səviyyəsinə yülsəldir.

**Nəticə**

Nazan Bəkiroğlu "Nar ağacı" romanında yalnız Türkiyənin ədəbi-mədəni və ictimai-siyasi həyatında həlledici olan dövrü deyil, həmçinin türk xalqlarının həyatında həlledici olan dövrə diqqət yetirir. Müəllif həmçinin, Qərb və ya Şərq dəyərləri kontekstində XX əsrin əvvəllərində baş vermiş siyasi olayları dəyərləndirir. Bir sıra siyasi olaylara, müharibələrə xalqın taleyüklü hadisəsi olmasını əks etdirir. Bütövlükdə türk ədəbiyyatına təsirsiz ötüşməməsini açıqlayır. Nazan Bəkiroğlu "Nar ağacı" romanında müharibə mövzusuna müxtəlif aspektdən yanaşır. Romanda xalqın milli mücadiləsini əks etdirilməklə yanaşı, müharibənin insan psixologiyasına vurduğu mənəvi zərbələrə də aydınlıq gətirilir. Bunu müharibədə həyatını itirmiş İsmayılın məktublarında görürük.

Qeyd etmək lazımdır ki, müasir ədəbiyyatda yeni tendensiya özünü göstərməkdədir. Ədəbiyyatda yeni ümumtürk ədəbiyyatının nümunələri formalaşmaqdadır. Bu proses həm Türkiyə ədəbiyyatı nümunələrində, həm də Azərbaycan ədəbiyyatında özünü göstərməkdədir. Türkiyə ədəbiyyatında təhlilə cəlb etdiyimiz Nazan Bəkiroğlunun "Nar ağacı", Azərbaycan ədəbiyyatında Sabir Şahtahtının "Yosun ətri" ("Yosun kokusu") romanlarını göstərə bilərik. Nazan Bəkiroğlunun "Nar ağacı" romanı sırf Türkiyə oxucularına ünvanlanmayıb. Romanda təsvir edilən hadisələrin arenası əsərin ümumtürk oxucusuna ünvanlandığını əks etdirir.

Romandakı hadisələr türkdilli xalqların yaşadıqları məkanları özündə ehtiva edir. Geniş zaman əhatəsi kontekstində hadisələrin təsvir edildiyi Azərbaycan, Türkiyə, İran, Qafqaz kimi məkanlarda türkdilli xalqların yaşamalarını, onların tarixini, mədəniyyətini də əks etdirir. Bu baxımdan, Nazan Bəkiroğlunun "Nar ağacı" romanı ümumtürk kontekstində yaranmış roman nümunələrindən biridir.

Azərbaycan oxucularına az tanış olan Nazan Bəkiroğlu yaradıcılığının tanıdılması sahəsində addımlar atılmalıdır. Türk romanlarının milli ədəbiyyat kontekstində öyrənilməsi Azərbaycan oxucularına Türk ədəbiyyatı nümunələri haqqında mühakimələr yürütməyə əsas verir. Bununla yanaşı, tariximizlə, milli dəyərlərimizlə bağlı məqamlarla tanış olmağa imkan yaradır.

## Ədəbiyyat

Bekiroğlu, N. (2019). *Nar ağacı*. Timaş Yayınları.

Левин, Ю. (1998). *Избранные труды. Поэтика. Семиотика*. Москва. Языки русской культуры.

Korkmaz, F. (2024). *Nazan Bekiroğlu'nun Nar ağacı romanında evde olmak / olmamak*. Turkish Studies İnternational Periodical for the Languages, Literature and History of Turkish or Turkic Volume 9/3, 927-936. earsiv.batman.edu.tr/xmlui/bitstream/handle/20.500.12402/3340/Nazan%20Bekiroğlu'nun%20Nar%20Ağacı%20romanında%20evde%20olmak%20%20olmamak.pdf?sequence=1&isAllowed=y

Сегст, Д. (1981). *Литература как охранная грамота*. Slavica Hierosolymitana: Juerosalem. Vol. V-VI, 151-244.

Мирошниченко, О. (2001). *Поэтика современной метапрозы*: автореф. дис. ... канд. филол. наук. Ростов-н/Д. Р*остовский государственный университет.*

Шарифова, С. (2012). *Теоретические аспекты жанрового многообразия азербайджанского романа*: автореф. дис. ... док. филол. наук. Москва. *Институт мировой литературы* им. А.М. Горького Российской академии наук.



**Sorumlu Yazar / Corresponding Author:** Prof. Dr. Salide ŞERİFOVA

**Çatışma Beyanı / Conflict Statement:** Yazar bu çalışma ile ilgili taraf olabilecek herhangi bir kişi ya da finansal ilişkisinin bulunmadığını, herhangi bir çıkar çatışmasının olmadığını beyan etmiştir.

**Etik Beyanı / Ethical Statement:** Yazar bu makalede "Etik Kurul İzni"ne gerek olmadığını beyan etmiştir.

**Destek ve Teşekkür / Support and Thanks:** Yazar bu çalışmada herhangi bir kurum ya da kuruluştan destek alınmadığını beyan etmiştir.

Yayımlanan makalede araştırma ve yayın etiğine riayet edilmiş; COPE (Committee on Publication Ethics)'nin editör ve yazarlar için yayımlamış olduğu uluslararası standartlar dikkate alınmıştır.